# Zeyqəm VÜQAR - 70



Hörmətli Zeyqəm Vüqar!

Sizi - istedadlı şairimizi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa ötən əsrin 70-ci illərindən başlamısınız. İlk şeirlərinizi tələbəlik illərində yazmısınız. Şeirləriniz "Ədəbiyyat qəzeti", "Azərbaycan müəllimi", "Ulduz" jurnalı və digər nüfuzlu mətbuat orqanlarında çap olunmuşdur. Əlli ildən artıqdır ki, ədəbi yaradıcılıqla məşğulsunuz.

Bu illər ərzində "Öyrət məni ayrılığa", "Sevgim gərəyin olar", "Vətən dərdi olmaya", "Məhəbbətin bəsimdir", "Ömür qatarı" adlı şeirlər kitabınız işıq üzü görüb.

"Qoy tanısın dünya səni", "Araz-2", "Araz-3", "Şəhidlik - ömrün nur çağı", "Çinar pöhrələri", "Səhər nəğmələri", "Dostlar töhfəsi", "Naxçıvanın şeir çələngi", "Zorbulağın zümzüməsi", "Naxçıvanım - göz nurum" almanaxlarında şeir və poemalarınız çap olunub.

Siz 1953-cü il yanvarın 8-də Şahbuz rayonunun Külüs kəndində anadan olmusunuz. 1975-ci ildə Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirmisiniz. 1975-1981-ci illərdə doğulduğunuz kənddə - Şahbuz rayonunun Külüs kəndində müəllim işləmisiniz.

Sonra 6 il Babək Rayon Tarix-Diyarşünaslıq Muzeyində fond müdiri, 1987-1990-cı illərdə Babək rayonundakı Nehrəm 2 nömrəli orta məktəbində müəllim, 1990-1994-cü illərdə Babək Rayon Təhsil Şöbəsində metodist, 1994-2016-cı illərdə isə yaşadığınız Babək rayonu Qoşadizə kənd orta məktəbində direktor vəzifələrində çalışmısınız. 2018-ci ildə Prezident mükafatına layiq görülmüsünüz.

Uzun illərdir radio və televiziyada çıxışlar edir, ədəbi və pedaqoji sahə ilə bağlı öz fikir və təkliflərinizi bildirirsiniz.

Hörmətli Zeyqəm müəllim.

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.